

# SAGLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK
# SİYASƏTİ

# GİRİŞ

Carlsberg Group fəal şəkildə insanların sağlamlığını və rifahını qorumaq, sağlam və təhlükəsiz iş mühitini təmin etmək və öz aktivlərinin və ətraf mühitin yüksək səviyyədə qorunmasını təmin etmək məqsədi daşıyır.

Qrup sıfır qəza mədəniyyətinin inkişafına çalışır və texnoloji proses və peşə sağlamlığı və təhlükəsizlik riskləri daxil olmaqla, öz fəaliyyətinin potensial risklərini qiymətləndirmək və nəzarət etmək üçün bütün ağlabatan tədbirləri görür.

Bu siyasət Carlsberg Qrupunun bütün biznes fəaliyyətlərində Sağlamlıq və təhlükəsizlik göstəricilərinin idarə edilməsi üçün əsas tələbləri müəyyən edir və bununla da istehsal travmatizminin və peşə xəstəliklərinin qarşısının alınması, istehsalatda bədbəxt hadisələrin qarşısının alınması və fəaliyyət göstərdiyimiz cəmiyyətlərdə insanların müdafiəsi üçün riskləri aradan qaldırır və ya azaldır.

# ƏHATƏ DAİRƏSİ

Bu siyasət Carlsberg qrupu obyektlərində və obyektlərdən kənar məkanlarda öz vəzifələrini yerinə yetirdikləri zaman Carlsberg Qrupu tərəfindən nəzarət olunan bütün müəssisələrin bütün işçilərinə qlobal miqyasda şamil olunur. O, həmçinin, Carlsberg Qrupunun obyektlərində olarkən podratçılara, təchizatçılara və ictimaiyyətin nümayəndələrinə tətbiq olunur.

Carlsberg Qrupu mövcud birgə müəssisələrdə nəzarətsiz səhmdar kimi iştirak etdiyi hallarda, digər səhmdar(lar) bu siyasətin Qrup üçün vacibliyindən xüsusi xəbərdar edilməli və birgə müəssisəyə eyni siyasəti və ya oxşar standartı tətbiq etməyə həvəsləndirilməlidir. Yeni minoritar birgə müəssisə əməkdaşlıqları nəzərdə tutulduğu hallarda, Carlsberg Qrupu digər səhmdar(lar)ın birgə müəssisə üçün bu siyasəti və ya oxşar standartı qəbul etməsi üçün çalışacaq.

# TƏLƏBLƏR

## 1. ƏMƏYIN MÜHAFIZƏSI VƏ TƏHLÜKƏSIZLIK TEXNIKASININ IDARƏETMƏ SISTEMI

**1.1.** Carlsberg Qrupu obyektlərində siyasətlə eyni əhatə dairəsinə malik OHSAS 18001-ə (və ya onun ISO 45001 əvəzedici versiyası) uyğun olaraq hazır sertifikatlaşdırılmış əməyin mühafizəsi və təhlükəsizlik texnikasının idarəetmə sistemi olmalıdır.

**1.2.** Qlobal miqyasda uyğunluğun və səmərəliliyin artırılması üçün bir neçə obyekt üçün fəaliyyət göstərən inteqrasiya olunmuş sistemlər (məsələn, Əməyin mühafizəsi və təhlükəsizlik texnikası, ətraf mühitin mühafizəsi və keyfiyyət) təşviq olunur.

## 2. ƏMƏYIN MÜHAFIZƏSI VƏ TƏHLÜKƏSIZLIK TEXNIKASI TƏŞKILATI

**2.1.** Yüksək etibarlı sıfır qəza mədəniyyətini dəstəkləmək məqsədilə Carlsberg Qrupu bütün müvafiq işçilərə ixtisaslaşdırılmış məsləhətlərin verilməsi üçün yerli əməyin mühafizəsi və təhlükəsizlik təşkilatları yaradır.

## 3. HADISƏLƏRIN MƏRUZƏ EDILMƏSI VƏ TƏHLILI

**3.1.** Sağlamlıq və təhlükəsizliklə bağlı bütün müvafiq insidentlər, o cümlədən istehsalat xəsarətləri və xəstəlikləri, həmçinin texnoloji prosesdə təhlükəsizliklə bağlı insidentlər yerli qanunvericiliyin tələblərinə və Carlsberg Qrupunun standartlarına və prosedurlarına uyğun olaraq qeydə alınmalı, təhlil edilməli və bildirilməlidir. İnsidentlərin qəsdən və bilərəkdən gizlədilməsi yolverilməzdir və intizam tənbehlərinə səbəb ola bilər.

**3.2.** Rəhbərlik müvafiq təsnifat, hesabat, əlaqə, təhlil və sonrakı nəzarəti təmin etməklə bildirilən hadisələrin dəqiq uçotunu aparmalıdır.

**3.3.** Rəhbərlik hadisənin nəticələrinin məhdudlaşdırmaq və onun təkrarlanmasının qarşısını almaq üçün ağlabatan və müvafiq tədbirlərin görülməsini təmin etməlidir.

## 4. UYĞUNLUQ

**4.1.** Carlsberg Group-un bütün törəmə şirkətləri milli və yerli qanun və qaydalara, eləcə də hazırkı siyasətin müddəalarına, zərərin qarşısının alınması üzrə Qrupun standartlarına və əməyin Mühafizəsi və Təhlükəsizlik texnikası üzrə Qrupun standartlarına riayət etməlidirlər.

**4.2.** Bu siyasətlə milli qanunlar və ya digər tətbiq olunan standartlar arasında hər hansı bir uyğunsuzluq olarsa, daha sərt tələblər tətbiq olunacaq. Hər hansı bir şübhə halında, hadisə Qrupun ƏMTT və Qrupun Hüquq şöbəsi tərəfindən birgə qiymətləndirilməlidir.

## 5. HƏYATI XILAS EDƏN QAYDALAR

Həyatı xilas edən qaydalar, Carlsberg Qrupu tarixində və ya sənayenin ümumi təcrübəsində ciddi və/və ya ölümcül hadisələrə əsaslanan, həyat üçün ciddi bir təhlükə olan fəaliyyət üçün iş üsullarıdır.

**5.1.** Bütün işçi heyəti Həyatı xilas edən qaydalara daim riayət etməlidir. Qəsdən və bilərəkdən qaydaların pozulması işdən azad olunmaya qədər intizam tədbirlərinə səbəb ola bilər.

| **Carlsberg-in Həyatı Xilas edən Qaydaları** | |
|---|---|
| **LSR 1** | Obyektdəki yol hərəkətinə və çəngəlli qaldırıcılara xas qaydalar daxil olmaqla, həmişə yol hərəkəti qaydalarına riayət edin. |
| **LSR 2** | Həmişə bloklama/etiketləmə prosedurlarına riayət edin. |
| **LSR 3** | Avadanlığın istismarı zamanı heç vaxt maşın avadanlığının qoruyucu bloklamasını və/və ya quraşdırılmış maneələri zədələməyin, ötüb keçməyin, nə də çıxartmayın. |
| **LSR 4** | Həmişə hündürlükdə işlə bağlı prosedurlara və tələblərə riayət edin və düşmənin qarşısını almaq üçün lazımi avadanlıqlardan istifadə edin. |
| **LSR 5** | Girişi məhdudlaşdırılmış məkana daxil olmaq üçün həmişə prosedurlara və tələblərə riayət edin. |

## 6. FÖVQƏLADƏ VƏZIYYƏT PLANI VƏ CAVAB TƏDBIRLƏRI

**6.1.** Fövqəladə vəziyyətlərdə cavab tədbirləri prosedurları hər il bütün Carlsberg Qrupu obyektlərində müəyyən edilməli, saxlanılmalı və sınaqdan keçirilməlidir. Bu prosedurlar işçi heyəti və ətraf cəmiyyət üçün təsirlərin minimuma endirilməsi üçün fövqəladə hallar zamanı müvafiq tədbirləri təsvir etməlidir.

**6.2.** Bütün müvafiq əməkdaşlar, o cümlədən podratçılar və Carlsberg Group obyektlərinə baş çəkən ictimaiyyət nümayəndələri fövqəladə hallarda necə hərəkət edəcəkləri barədə təlimatlandırılmalı və təlimdən keçməlidirlər.

**6.3.** Carlsberg Qrupu obyektləri yerli icmalar və onların təcili xidmətləri ilə əlaqə saxlamalı, onlara icmalar səviyyəsində cavab tədbirlərini adekvat şəkildə planlaşdırmağa imkan verən müvafiq məlumatı təqdim etməlidirlər.

**6.4.** Fövqəladə hal ssenariləri böhran vəziyyəti ssenarilərinə çevrilə bilər. Carlsberg Qrupunun Böhran əleyhinə idarəetmə siyasəti və prosedurları (CGCMP) böhranın idarə olunması proseslərinin strukturunu və tələblərini təsvir edir.

## 7. RƏHBƏRLIK VƏ IŞTIRAK

Biznesin idarə edilməsinin ayrılmaz bir hissəsi olaraq, bütün səviyyələrdəki menecerlər güclü rəhbərlik və güvən ilə iş yerində əməyin mühafizəsi və təhlükəsizliyin idarə olunması üçün məsuliyyət daşıyırlar və cavabdehdirlər. Onlar nümunə göstərməli və əməkdaşların Əməyin mühafizəsi və təhlükəsizlik texnikası sahəsində proqram və təşəbbüslərdə fəal iştirakını təmin etməlidirlər.

Eyni zamanda, işçilərin bu tədbirlərdə iştirak etməsi, və davamlı sıfır qəza mədəniyyətinə dəstəkləməsi gözlənilir.

**7.1.** Bütün kateqoriya rəhbərləri müntəzəm olaraq işin gedişini izləməli və komandalarına rəylərini bildirərək təhlükəsiz davranışı təsdiqləməli və təhlükəli şərtlər və davranışları nəzərdən keçirməlidirlər.

**7.2.** İşçilərin aşağıdakı hüquqları vardır:
- davam etməyin kifayət qədər təhlükəsiz olmadığını düşünərlərsə, səlahiyyətli şəxs müvafiq risklərə nəzarət tədbirləri görənə qədər istehsal, anbarlaşdırma və distribusiya işlərini dayandırmaq və/və ya hər hansı bir vəzifənin icrasını saxlamaq;
- iş mühitində təhlükəli şərait barədə rəhbərliyə məlumat vermək;
- müşahidə etdikləri hər hansı təhlükəli hərəkətlərə etiraz etmək.

**7.3.** Davranışın müşahidəsi və rəy proqramları təhlükəli şərtlər bütün müvafiq obyektlər tərəfindən təhlükəli şərait barəsində məlumatlandırma və emal prosesləri ilə birlikdə həyata keçirilməlidir.

**7.4.** Bütün obyektlərin sağlamlıq və təhlükəsizlik haqqında əməkdaşlar, podratçılar və digər maraqlı tərəflərlə fəal şəkildə ünsiyyət üçün sistemləri olmalıdır. Uyğun olduğu hallarda onların öz vəzifələrini təhlükəsiz yerinə yetirməyə hazır olmasını təmin etmək üçün təhsil və təlim təmin edilməlidir.

## 8. PODRATÇILARIN IDARƏ EDILMƏSI

**8.1.** Əməyin mühafizəsi və təhlükəsizlik texnikasının idarə edilməsi təchizatçı və podratçının seçilməsi prosesində həmişə nəzərə alınmalıdır. Müqavilələrdə yerinə yetiriləcək ƏMTT tələbləri dəqiq göstərilməlidir.

**8.2.** Carlsberg Qrupunun obyektlərinə daxil olan podratçılar və digər üçüncü tərəflər kifayər qədər müvafiq məlumat və hazırlıqlara malik olmalı və öz vəzifələrini təhlükəsiz şəkildə yerinə yetirmək üçün lazımi qaydada təchiz olunmalıdırlar.

**8.3.** Carlsberg-in idarə etdiyi obyektlərdə olarkən, podratçılar Carlsberg Qrupunun bütün tətbiq olunan qaydalarına və prosedurlarına riayət etməlidirlər.

# ROLLAR VƏ VƏZIFƏLƏR

| Orqan/funksiya/fərdlər | Rollar və vəzifələr |
|---|---|
| İcraiyyə Komitəsi | Siyasətin təsdiqinə görə məsuliyyət daşıyır. |
| Carlsberg Təchizat zəncirinin (CSC) icraçı vitse-prezidenti | Siyasətin sahibi, onu təsdiqləyir və həyata keçirilməsini təmin edir. |
| Qrupun Əməyin mühafizəsi və Təhlükəsizlik texnikası şöbəsi | Carlsberg Qrupunda əməyin mühafizəsi və təhlükəsizlik texnikası məsələləri üzrə İcraiyyə Komitəsi qarşısında və əməyin mühafizəsi və təhlükəsizlik texnikası risklərinin Qrupda düzgün uçotunun aparılması və müvafiq hallarda İcraiyyə Komitəsinin diqqətinə çatdırılmasına görə ümumi məsuliyyət daşıyan siyasət sahibi. Qrupun Əməyin mühafizəsi və təhlükəsizlik sahəsində strategiya, yönləndirmə, səmərəliliyin idarə edilməsi, idarəetmə sistemi, siyasətlər və standartlarına görə ümumi məsuliyyət daşıyır. |
| Qrupun VP-ləri/Ölkə üzrə Baş direktorlar/İstehsalat direktorları/Müştəri təchizat zənciri direktorları/regional və yerli rəhbərlik | Nümunə göstərməyə və bu siyasətin və müvafiq standartların həyata keçirilməsinin və yerinə yetirilməsinin təmin edilməsinə, həmçinin siyasət və onun tələbləri barədə bütün müvafiq əməkdaşların məlumatlandırılmasına görə məsuliyyət daşıyır. Əməyin mühafizəsi və təhlükəsizlik risklərinin lazımi şəkildə qiymətləndirilməsini, nəzarət olunmasını və haqqında məlumatın verilməsini, eləcə də bütün müvafiq personalın öz vəzifələrini təhlükəsiz və müvafiq risklər və tətbiq olunan nəzarət tədbirləri barədə kifayət qədər biliklərlə yerinə yetirmək üçün lazımi hazırlıq keçməsini təmin etmək. |
| Podratçılar, təchizatçılar və ziyarətçilər də daxil olmaqla, Carlsberg Qrupu daxilində bütün müəssisələrin rəhbərliyi, işçiləri və muzdlu işçiləri | Bu siyasətə riayət olunmasına və əməyin mühafizəsi və təhlükəsizlik texnikası ilə bağlı hadisələr, istehsal təhlükəsizliyi ilə bağlı hadisələr və qeyri-standart şərait barədə məlumatlandırmağa görə cavabdehdir. |

# LÜĞƏT

### Carlsberg Qrupu obyekti

Birbaşa Carlsberg Qrupunun törəmə şirkətlərinin idarəsində olan və ya Qrup adından tikinti və/və ya quraşdırma işləri aparılan mülkiyyətə aid olan və ya icarəyə götürülmüş istənilən yer.

### Böhran

Planlaşdırılmamış və ya hazırlıq görülməmiş, yaxud hazırlığın hadisənin miqyasının öhdəsindən gəlmək üçün kifayət etmədiyi və nəticənin təşkilatın nüfuzuna və strateji məqsədlərinə ciddi ziyan vura bilmə potensialına malik olduğu vəziyyət.

### Texnoloji prosesin təhlükəsizliyi

Texnoloji prosesin təhlükəsizliyi təhlükəli materialların və ya enerjinin atılmasına səbəb ola biləcək hadisələrin qarşısının alınması və nəzarəti ilə bağlıdır. Belə hadisələr toksik təsirlərə, yanğına və ya partlayışa səbəb ola bilər və nəticədə ciddi yaralanmalara, mülkiyyətə ziyanın dəyməsinə, istehsalat itkilərinə və ətraf mühitə təsirə gətirib çıxara bilər.

### OHSAS 18001 / ISO 45001

Sağlamlıq və təhlükəsizlik risklərini müəyyən etmək və nəzarət etmək, bədbəxt hadisələrin baş vermə ehtimalını azaltmaq, qanunvericiliyə riayət etmək və istismar xüsusiyyətlərini yaxşılaşdırmaq üçün təşkilatları standartlarla təmin edən əmək mühafizəsi və təhlükəsizlik üzrə idarəetmə sistemləri üçün beynəlxalq standartlar.

# SAPMALAR

Hər hansı bir istisna halı olmayınca və ya siyasət açıq-aydın tətbiq oluna biməyincə, bu siyasətlə bağlı heç bir istisna təmin edilə bilməz. İstisnalarla bağlı bütün sorğular siyasət sahibinə yazılı şəkildə təqdim edilməlidir. Siyasət sahibi hər bir sorğunu fərdi şəkildə qiymətləndirməli və qərar qəbul etməlidir. İstisnalar lazımi şəkildə qeydə alınmalı və sənədləşdirilməlidir.

# SİYASƏTİN YENİDƏN BAXILMASI

Bu siyasətə ən azı iki ildən bir İcraiyyə Komitəsi tərəfindən yenidən baxılmalı və təsdiq edilməlidir. O, istənilən vaxt İcraiyyə Komitəsinin razılığı ilə dəyişdirilə bilər. Bu siyasətin İngilis versiyası və tərcümə edilmiş versiya arasında hər hansı bir uyğunsuzluq olduqda, İngilis versiyası məcburi qüvvəyə malik olacaq.

# ƏLAQƏDAR SIYASƏTLƏR VƏ TƏLIMAT KITABÇALARI

- Carlsberg Əməliyyat üzrə təlimat kitabçası (COM)
- Əməyin mühafizəsi və təhlükəsizlik standartları və itkilərin qarşısının alınması standartları
- SHAPE (Təhlükəsizlik, Sağlamlıq və ətraf mühitin qiymətləndirilməsi proqramının yüksək standartları)
- Spirtli içkilərin Məsuliyyətli qəbulu Siyasəti
- Böhranın İdarəetmə Siyasəti
- Risklərin idarə edilməsi siyasəti
- Sığorta Üzrə Təlimat kitabçası
- Təhlükəsizlik siyasəti
- Səyahət Təhlükəsizliyi üzrə təlimat kitabçası

# ƏLAQƏ

Ətraflı məlumat üçün Qrupun Əməyin mühafizəsi və təhlükəsizlik bölməsinə müraciət edin.

AZƏRBAYCAN DİLİNDƏ VERSİYA

**Yanvar 2018**

Carlsberg Pivə
zavodları A/S
100 Ny Carlsberg Vej
1799 Kopenhagen V
Danimarka